# ƏDLİYYƏ

881 ÇAĞRI MƏRKƏZİ

www.justice.gov.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı

№ 09 (246) sentyabr 2024


## Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



Ermənistan Respublikası 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir.

Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq **qərara alıram:**

1. Hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 19 sentyabr 2024-cü il*

# 27 SENTYABR - ANIM GÜNÜDÜR




# Prezident İlham Əliyev Zəfər parkında olub




**Sentyabrın 27-də - Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda inşası davam etdirilən Zəfər parkında olub.**

Dövlətimizin başçısı parkın girişində xatirə daşının önünə gül dəstəsi qoydu.

Qeyd edək ki, Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış Vətən müharibəsinin başlamasından dörd il ötür. Xalqımız Azərbaycanın ərazi bütövlüyü, Qarabağın azadlığı naminə canından keçmiş Vətən övladlarının xatirəsini ehtiramla yad edir. Bakının 8 Noyabr prospektində inşası davam edən Zəfər parkı da bu ehtiramın təcəssümüdür.

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamla inşası davam etdirilən layihəyə əsasən, torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə kompleksin ərazisində Zəfər muzeyi də yaradılır. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.


Beynəlxalq əməkdaşlığa dair tədbirlər — səhifə 3-4-də



Qulluğa qəbul — səhifə 4-də

ƏDLİYYƏ AKADEMİYASI
Ədliyyə Akademiyası xəbərləri — səhifə 7-də

Reyestr məlumatları — səhifə 8-də

## Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Cəzaçəkmə müəssisələrində keyfiyyətli peşə təhsilinin həyata keçirilməsi cəzaçəkmə müəssisələrindən azadlığa buraxılmış şəxslərin sosial adaptasiyasının asanlaşdırılması, əmək bazarının ixtisaslı işçi qüvvəsinə tələbatının davamlı təmin olunması baxımından böyük önəm kəsb edir.

Bu baxımdan, cəzaçəkmə müəssisələrində peşə təhsilinin müasir standartlara, əmək bazarında mövcud və gələcəkdə təklif ediləcək iş yerlərinə uyğun qurulması cəza çəkməkdən azad edilmiş şəxslərin sosial mühitə uyğunlaşdırılmasında, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunmasında, bu şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin və onlara təsir göstərə bilən kriminogen amillərin qarşısının alınmasında vacib rol oynayacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi, habelə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyasının təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri nəzərə alınmaqla, cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsinə və mövcud infrastrukturun təkmilləşdirilməsinə dair fəaliyyət planının layihəsini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. fəaliyyət planı layihəsinin hazırlanması ilə əlaqədar aidiyyəti dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət işçi qrupun yaradılmasını təmin etsin;

1.3. fəaliyyət planının layihəsi hazırlanarkən ixtisaslaşmış ekspertlərlə və mütəxəssislərlə səmərəli əməkdaşlığın həyata keçirilməsini, habelə elmi təşkilatların və vətəndaş cəmiyyəti institutlarının cəlb olunmasını təmin etsin;

1.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Aidiyyəti dövlət orqanları (qurumları) bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 11 sentyabr 2024-cü il*

## Ədliyyə Nazirliyinin kollektivi Anım Gününü qeyd edib





**Ədliyyə Nazirliyində 27 Sentyabr - Azərbaycan Respublikasında Anım Günü ilə əlaqədar tədbir keçirilib.**

Əvvəlcə şəhid ədliyyə işçisi Ruhin Xəlilovun xatirəsi anılıb, nazirlikdəki barelyefi önünə gül dəstəsi qoyulub.

Tədbirdə çıxış edən ədliyyə naziri Fərid Əhmədov Vətən müharibəsinin başladığı günün Azərbaycan Respublikasında Anım Günü kimi qeyd olunmasına dair Prezident İlham Əliyevin müvafiq Sərəncamının şəhidlərin ruhuna ən ali ehtiramın göstəricisi olduğunu qeyd edib. Nazir vurğulayıb ki, 2023-cü il sentyabrın 20-də Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində Azərbaycan Respublikasının dövlət suverenliyi tam bərpa edilib. Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər Azərbaycan ordusununun şücaəti, xalq və dövlətin birliyi



nəticəsində əldə olunmuş zəfər sayəsində tarixi ədalət bərpa edilib və bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə qürurla dalğalanır.

Tədbirdən sonra nazirliyin rəhbər heyəti və kollektivi Zəfər Parkını ziyarət edib. Parkın girişində xatirə daşının önünə gül dəstələri qoyulub, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi və suverenliyin bərqərar olunmasında canlarını fəda etmiş şəhidlərimizin xatirəsi yad edilib.

Həmçinin nazirliyin kollektivi 26 sentyabr tarixində II Fəxri xiyabanı ziyarət edib. Torpaqlarımızın azad olunması uğrunda şəhid olmuş qəhrəmanlarımızın, o cümlədən şəhid ədliyyə işçisi Ruhin Xəlilovun məzarları ziyarət olunaraq üzərinə tər çiçəklər düzülüb, onların xatirəsi ehtiramla yad edilib.





## Nazir Fərid Əhmədov Göygöl şəhərində vətəndaşları qəbul edib



**Ədliyyə naziri Fərid Əhmədov 26 sentyabr tarixində Göygöl rayon Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.**

**Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib** və önünə gül dəstəsi qoyub.

Qəbulda Göygöl, Daşkəsən, Samux, Goranboy, Naftalan və Xocalı rayon sakinlərinin ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.





*Beynəlxalq əməkdaşlığa dair tədbirlər*

# Türk Dövlətləri Təşkilatı Ədliyyə Nazirləri Şurasının 2-ci iclası gələn il Azərbaycanda keçiriləcək






**Ədliyyə naziri Fərid Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Ədliyyə Nazirləri Şurasının ilk iclasında iştirak edib.**

Tədbirdə çıxış edən Fərid Əhmədov ədliyyə sahəsində üzv dövlətlərlə çoxtərəfli formatda əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Ötən dövr ərzində Azərbaycan və Türk dövlətləri arasında elektron ədliyyə xidmətləri, notariat fəaliyyəti, məhkəmə ekspertizası, cəza-icra sistemi və kadr hazırlığı sahəsində ikitərəfli əməkdaşlığa dair çoxsaylı sənədlərin imzalandığını qeyd edən nazir, Ədliyyə Nazirləri Şurasının üzv dövlətlər arasında sahə üzrə əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində effektiv platforma olacağını bildirib.

Toplantıda üzv dövlətlər arasında çoxtərəfli əməkdaşlıq üçün perspektivlər, ədliyyə sahəsində rəqəmsallaşmanın əhəmiyyəti, hüquqi sahədə yeni razılaşmaların əldə edilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılıb.

Nazirlər görüşün yekununda Azərbaycan tərəfinin də təklifləri nəzərə alınmaqla hazırlanmış "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Ədliyyə Nazirlərinin ilk Şurasının Nəticələrinə dair Birgə Bəyannamə" imzalayıb və TDT Ədliyyə Nazirləri Şurasının 2-ci iclasının 2025-ci ildə Azərbaycan Respublikasında keçirilməsi barədə qərar qəbul ediblər.

Həmçinin tədbir çərçivəsində Fərid Əhmədov üzv ölkələrin ədliyyə nazirləri ilə də ikitərəfli görüşlər keçirərək, əməkdaşlığa dair müzakirələr aparıb.

# Azərbaycanla Qazaxıstan arasında hüquqi sahədə qarşılıqlı fəaliyyət haqqında Memorandum imzalanıb

**Ədliyyə naziri Fərid Əhmədov Qazaxıstana səfəri çərçivəsində həmin ölkənin ədliyyə naziri Azamat Yeskarayev ilə görüşüb.**

Görüşdə ortaq soykök və tarixi-mədəni əlaqələrə malik Azərbaycan və Qazaxıstan arasındakı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində davam etdiyi vurğulanıb. Qeyd edilib ki, dövlət başçıları arasında sıx münasibətlər, eləcə də qarşılıqlı yüksək səviyyəli səfərlər ölkələr arasında əlaqələrə və ikitərəfli əməkdaşlığın inkişafına mühüm töhfə verir.

Görüşdə ədliyyə sahəsində qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib, iki ölkə arasında müvafiq sahə üzrə müxtəlif istiqamətlərdə əməkdaşlığın daha da genişləndirilməsi, eləcə də müasir tendensiya və təcrübələrin öyrənilməsinin vacibliyi vurğulanıb.

Görüş çərçivəsində "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Qazaxıstan Respublikasının Ədliyyə Nazirliyi arasında hüquqi sahədə qarşılıqlı fəaliyyət haqqında Memorandum" imzalanıb.

Memoranduma əsasən tərəflər yerli qanunvericiliklərin beynəlxalq standartlara uyğunlaşdırılması, ədliyyə sahəsində müasir İKT-nın tətbiqi, ədliyyə xidmətlərinin təkmilləşdirilməsi və əlçatanlığın artırılması, kadr hazırlığı, icra və məhkəmə ekspertizası fəaliyyəti üzrə təcrübə mübadiləsinin həyata keçirilməsi, ekspert görüşlərinin və səfərlərin təşkil edilməsi, eləcə də qarşılıqlı maraq doğuran digər istiqamətlər üzrə əməkdaşlıq edəcəklər.





*Beynəlxalq əməkdaşlığa dair tədbirlər*

# Ədliyyə naziri Pakistanın ölkəmizdəki səfiri ilə görüşüb




**Ədliyyə naziri Fərid Əhmədov sentyabrın 4-də Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qasım Mohiuddin ilə görüşüb.**

Nazir səfiri salamlayaraq onu bu vəzifəyə təyin edilməsinə görə təbrik edib, diplomata gələcək fəaliyyətində uğurlar arzulayıb. Səmimi qəbula görə təşəkkür edən səfir Azərbaycanda özünü vətənindəki kimi hiss etdiyini bildirib.

Görüşdə iki ölkə arasında strateji tərəfdaşlığın yüksək qiymətləndirildiyi, qarşılıqlı səfər və görüşlərin bütün sahələrdə əməkdaşlığın inkişafına töhfə verəcəyi qeyd olunub.

Söhbət zamanı Azərbaycan ilə Pakistan arasında hüquqi sahədə əlaqələrin inkişafından məmnunluq ifadə edilib, ekstradisiya və məhkumların verilməsi üzrə sıx əməkdaşlığın həyata keçirildiyi bildirilib. Həmçinin iyulun 11-də Prezident İlham Əliyevin Pakistana dövlət səfəri çərçivəsində imzalanmış və ötən günlərdə ölkə başçısının müvafiq Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Pakistan İslam Respublikasının Hüquq və Ədliyyə Nazirliyi arasında Əməkdaşlıq Memorandumu"nun iki ölkə arasında hüquqi sahədə əməkdaşlığın genişləndirilməsinə və əlaqələrin dinamikasının artmasına təkan verəcəyi vurğulanıb.

Görüşdə hüquqi əməkdaşlığın gələcək perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair müzakirələr aparılıb.

# Nazir Fərid Əhmədov Efiopiyanın Ədliyyə Nazirliyinin ədliyyə məsələləri üzrə dövlət katibi ilə görüşüb

**Ədliyyə naziri Fərid Əhmədov sentyabrın 28-də ölkəmizə səfəri çərçivəsində Efiopiya Federativ Demokratik Respublikasının Ədliyyə Nazirliyinin ədliyyə məsələləri üzrə dövlət katibi Tesfaye Wakjira ilə görüşüb.**

Qonaqları salamlayan nazir ölkələr arasında müəyyən sahələrdə ikitərəfli, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın mövcud olduğunu qeyd edib. Fərid Əhmədov ölkəmizdə ədliyyə sahəsində rəqəmsallaşma, təlim və tədris prosesi, eləcə də görülən digər işlər barədə məlumat verib. 34 ölkənin Ədliyyə nazirlikləri ilə əməkdaşlığa dair sənədlərin mövcud olduğunu vurğulayan nazir Efiopiya ilə də hüquqi sahədə əlaqələrin inkişafı üçün imkanların olduğunu qeyd edib.

Səmimi qəbula görə öz minnətdarlığını bildirən Tesfaye Wakjira Azərbaycana səfərinin tarixi əhəmiyyət daşıdığını vurğulayıb. Ölkəsinin "Afrikanın siyasi paytaxtı" olaraq adlandırıldığını bildirən dövlət katibi Efiopiyanın Azərbaycanda ədliyyə sahəsində aparılan islahatlara, ölkələr arasında hüquqi sahədə qarşılıqlı fəaliyyət haqqında sənədin hazırlanmasına, eləcə də dövlət xidmətlərinin göstərilməsinə dair Azərbaycan təcrübəsinin öyrənilməsinə maraqlı olduğunu bildirib.

Görüşdə hüquqi əməkdaşlığın gələcək perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair müzakirələr aparılıb.





*Qulluğa qəbul*

# Ədliyyə Nazirliyi qulluğa qəbulla bağlı növbəti müsabiqə elan edir

**Müsabiqədə "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunun 4-cü maddəsində nəzərdə tutulmuş tələblərə cavab verən ali hüquq təhsilli Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.**

Ədliyyə Nazirliyinin müxtəlif struktur qurumlarında olan vakant vəzifələri əhatə edən bu müsabiqədə iştirak üçün ərizələrin qəbulu 2024-cü il sentyabr ayının 18-dən oktyabr ayının 18-i saat 18:00-dək aparılacaq.

Namizədlər ərizələrini Nazirliyin rəsmi saytında (www.justice.gov.az) "Qulluğa qəbul" bölməsində "Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı elektron müraciət" adlı hissəyə və ya "http://e-erize.justice.gov.az:8080/" linkinə daxil olmaqla təqdim edə bilərlər.

Qeyd edək ki, müsabiqə üzrə test imtahanı Dövlət İmtahan Mərkəzi tərəfindən ödənişli əsaslarla keçirilir. Bununla əlaqədar hər bir namizəd imtahana buraxılış vərəqəsini bu barədə elan verildikdən sonra Mərkəzin rəsmi saytında (www.dim.gov.az) qeydiyyatdan keçməklə və müvafiq vəsaiti ödəməklə əldə etməlidir.




İmtahandan uğur qazanmış namizədlərin digər zəruri sənədləri bu mərhələdən sonra toplanılaraq yoxlanılacaq və qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verən şəxslər ikinci mərhələyə - söhbətə buraxılacaqlar.

Test imtahanının vaxtı və yeri, o cümlədən buraxılış vərəqələrinin təqdim olunması barədə namizədlərə məlumat veriləcək.

Əlavə məlumat əldə etmək üçün (012) 538-01-62, 538-08-85 nömrəli telefonlarla əlaqə saxlamaq olar.

# "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" İşçi qrupunun məlumatı

**Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyasının fəaliyyəti çərçivəsində "Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Mübahisələrin həlli" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmənin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi"nin 4.1.1-ci yarımbəndində nəzərdə tutulan mediasiya proseslərinin rəqəmsallaşdırılması istiqamətində işlər tamamlanıb.**

Ədliyyə Nazirliyi və Mediasiya Şurasının birgə əməkdaşlığı nəticəsində artıq ölkəmizdə fəaliyyət göstərən bütün mediatorlar və mediasiya təşkilatları barədə ətraflı məlumatlar Azərbaycan Respublikasının Vahid Məhkəmə Portalına inteqrasiya edilib. Belə ki, bu günədək mediasiya təşkilatlarına müraciətlər rəsmi qaydada poçt vasitəsilə, e-poçt üzərindən, yaxud da vətəndaşların mediasiya təşkilatlarına birbaşa müraciət etməsi ilə baş tuturdu. Bundan sonra fiziki və hüquqi şəxslər Vahid Məhkəmə Portalı vasitəsilə bütün mediasiya təşkilatları və mediatorlar barədə ətraflı məlumat əldə etmək, habelə istənilən mediatora və mediasiya təşkilatına elektron formada müraciət etmək imkanına malik olacaqlar.

Bunun üçün fiziki və ya hüquqi şəxslər hər hansı autentifikasiyadan keçmədən Vahid Məhkəmə Portalında "Mediatorlar" başlığına daxil olaraq bütün regionlar üzrə mediasiya təşkilatları, habelə ayrı-ayrı mediatorlar barədə ətraflı məlumatla tanış ola bilərlər.




Elektron formada müraciət etmək üçün həmin hissədə "Müraciət et" bölməsi seçilməklə açılan pəncərədə fiziki şəxslər fərdi identifikasiya nömrəsini (FİN) və doğum tarixini, hüquqi şəxslər isə vergi ödəyicisinin eyniləşdirmə nömrəsini (VÖEN) daxil edir. Növbəti pəncərədə müraciətçi tələb edilən məlumatları (mediasiyaya müraciət edərkən qanunvericiliklə müəyyən edilmiş məlumatlar - müraciət edənin və qarşı tərəfin adı, soyadı, atasının adı, ünvanı, əlaqə nömrəsi, mübahisənin növü və predmeti, müraciət etmək istədiyi təşkilat, mediator və s.) əlavə edərək ilkin mediasiya sessiyası üçün elektron ərizə formasını doldurur və qarşı tərəfə göndərməli olduğu "mediasiya prosesinin tətbiqi barədə təklif"i, habelə həmin təklifin qarşı tərəfə çatmasını təsdiq edən poçt sənədini "pdf" formatında yükləməklə müraciətini yekunlaşdırır.

Qaydalara uyğun edilmiş müraciət barədə dərhal müraciət edilmiş mediasiya təşkilatına məlumat daxil olur və bundan sonra mediasiya təşkilatı edilmiş müraciət üzrə mediator təyin etməklə mediasiya proseslərinə başlayır. Həmçinin müraciətçinin bu portal vasitəsilə müraciətinin hansı mərhələdə olmasını izləmək, bildirişlər əldə etmək və ya əlavə müraciətlər etmək imkanı da vardır.

Mediasiya xidmətləri üzrə müraciətlərin elektronlaşması sahəsində atılan bu addım həm bu xidmətdən istifadə edən şəxslər, həm də mediasiya təşkilatları və mediatorlar üçün mediasiya xidmətlərinin göstərilməsində daha rahat və asan imkanlar yaradır.

Qeyd edək ki, Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyasının fəaliyyəti çərçivəsində "Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Mübahisələrin həlli" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmənin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi" cari ilin 31 may tarixində Baş nazirin birinci müavini tərəfindən təsdiq edilib.

# Mübahisələrin həlli və elektron məhkəmə sistemi ilə bağlı nailiyyətlər, yeniliklər və aktual mövzular müzakirə edilib

**Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" işçi qrupunun geniş tərkibdə növbəti iclası keçirilib.**



İclasda Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Katibliyi, Ədliyyə Nazirliyinin, Ali Məhkəmənin, Bakı Apellyasiya Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının əməkdaşları, İqtisadiyyat Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Mediasiya Şurasının nümayəndələri və İşçi qrupun digər üzvləri, o cümlədən özəl sektorun nümayəndələri iştirak ediblər.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri, Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev İşçi qrupun ötən illərdə kifayət qədər uğurlu fəaliyyət göstərdiyini, 2024-cü il üzrə əsas hədəfləri əhatə edən Yol Xəritəsinin əksər tədbirlərinin artıq icra olunub yekunlaşdığını, bu işlər çərçivəsində əldə edilmiş nailiyyətlərin müvafiq sahədə biznes mühitinə əhəmiyyətli müsbət təsir edəcəyini və özəl sektorun məmnunluğunun artmasına xidmət edəcəyini bildirib.

Azərbaycan Respublikası ədliyyə nazirinin müavini, İşçi qrupun rəhbəri Toğrul Hüseynov İşçi qrupun fəaliyyəti nəticəsində əldə edilmiş əsas nailiyyətləri səsləndirib. Qeyd edib ki, elektron məhkəmə sisteminin inkişafı, habelə məhkəmələrin və digər orqanların qərarlarının operativ icrası və effektivliyinin artırılması istiqamətində qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi üzrə işlər aparılır. O, həmçinin mediasiyanın rəqəmsallaşdırılması, icra və məhkəmə statistikası ilə bağlı məlumatların açıqlığının təmin edilməsi məqsədi ilə təşkilati tədbirlərin görüldüyünü bildirib.

Qeyd olunub ki, İşçi qrupun və Mediasiya Şurasının birgə fəaliyyəti çərçivəsində mediasiya proseslərinin inkişaf etdirilməsi və rəqəmsallaşdırılması istiqamətində mühüm addımlar atılıb. Vahid Məhkəmə Portalında yaradılmış yeni funksionallıq ilə fiziki və hüquqi şəxslər üçün bütün mediasiya təşkilatları və mediatorlar barədə ətraflı məlumat əldə etmək, habelə istənilən mediatora və mediasiya təşkilatına həmin portal vasitəsilə elektron formada müraciət etmək imkanı yaradılıb. Bununla yanaşı bütün mediasiya təşkilatları "gov.az" ölkə kodlu domenlə təmin edilib.

Mübahisələrə baxılması və qərarların qəbul edilməsinin önəmi ilə yanaşı qəbul olunmuş qərarların icrasının da bir o qədər əhəmiyyət daşıdığı səsləndirilərək beynəlxalq mediasiya barışıq sazişlərinin tanınması və icrası məqsədilə Sinqapur Konvensiyası kimi tanınan "Mediasiya vasitəsilə əldə olunan beynəlxalq barışıq sazişləri üzrə BMT Konvensiyası"nın müzakirəsi üzrə işlərə başlanıldığı bildirilib.

Tədbirdə mübahisələrin həllinin ən rahat və çevik həll yollarından olan arbitraj proseslərinin tənzimlənməsi sahəsində ən son yeniliklər səsləndirilib.

İclasda həmçinin Vahid Məhkəmə Portalı üzrə yaradılmış yeni funksional imkanlar təqdim olunub. Geniş auditoriyanın məhkəmə statistikası sahəsində məlumatlara əlçatanlığının təmin edilməsi məqsədi ilə Portalın "Məhkəmə statistikası" bölməsinin yeniləndiyi, burada məhkəmələr tərəfindən icraata daxil olmuş və həll olunmuş müxtəlif kateqoriyalı kommersiya işlərinin sayı, bitmə əmsalı (clearance rate) və işlərə baxılma müddəti (disposition time) barədə hər bir məhkəmə üzrə müvafiq illəri (rübləri) əhatə edən statistik məlumatlar yerləşdirildiyi qeyd olunub.

İcra sahəsində statistikanın açıqlığının təmin edilməsi məqsədilə icra sənədləri üzrə icra icraatlarının orta müddəti, orta xərcləri və həll olunması vəziyyətini əhatə edən statistik məlumatların Ədliyyə Nazirliyinin rəsmi internet səhifəsində "Hesabatlar" başlığı altında (https://justice.gov.az/categories/2137) yerləşdirildiyi bildirilib.

Tədbirdə həmçinin "Elektron Məhkəmə" informasiya sistemi vasitəsilə elektron qaydada aparılan məhkəmə icraatı üzrə hazırkı vəziyyət, istifadəçi məmnunluğu və qarşıda duran vəzifələr müzakirə olunub.

Bununla yanaşı İşçi qrupun 2024-cü il üzrə əsas hədəflərini əhatə edən yol xəritəsində nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti, hazırlanmış layihələr və görülmüş işlər səsləndirilib. Bildirilib ki, Yol Xəritəsinin icrası çərçivəsində mübahisələrin həlli, icra və məhkəmə sistemi ilə bağlı bir sıra yenilikləri əhatə edən mühüm layihələr hazırlanaraq Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyaya təqdim olunub.

Tədbir iclas iştirakçılarının çıxışları və İşçi qrupun fəaliyyəti ilə bağlı müzakirələrlə davam etdirilib.

Məlumat üçün qeyd edək ki, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" işçi qrupuna rəhbərliyi Ədliyyə Nazirliyi həyata keçirir.

# ”Biznesin müflisləşməsi” İşçi qrupunun sahibkarlıq subyektləri ilə görüşü keçirilib

**Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Ədliyyə Nazirliyinin rəhbərlik etdiyi ”Biznesin müflisləşməsi” İşçi qrupunun Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin dəstəyi ilə sahibkarlıq subyektləri ilə görüşü keçirilib.**



Görüş çərçivəsində İşçi Qrupun rəhbəri, Bakı Apellyasiya Məhkəməsinin hakimi Ramin Qaraqurbanlı və İşçi Qrupun üzvləri tərəfindən sahibkarları maraqlandıran suallar cavablandırılıb və müflisləşmə sahəsində qanunvericiliyin beynəlxalq tələblərə uyğunlaşdırılması ilə bağlı görülən işlər barədə məlumat verilib.

Görüşdə, həmçinin Dünya Bankı Qrupunun ”Business Ready” hesabatının ”Biznesin müflisləşməsi” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi” çərçivəsində İşçi Qrup tərəfindən görülmüş işlər, hazırlanmış yeni normativ-hüquqi aktlara dəyişikliklər barədə layihələr səsləndirilib.

Qeyd olunub ki, ”Sağlamlaşdırma və müflisləşmə haqqında” yeni qanun layihəsinin hazırlanmasına başlanılıb, bu məqsədlə Dünya Bankı tərəfindən ABŞ və Almaniyadan müflisləşmə sahəsində ixtasaslaşmış xarici ekspertlər cəlb olunub.

Eyni zamanda, hüquqi şəxslərin dövlət reyestri və vergi ödəyicisinin uçotu reyestrində müflisləşmə prosesində olan sahibkarlıq subyektlərinə dair məlumatların əks olunması məqsədilə qanunvericilik aktlarına dəyişikliklər barədə layihələr hazırlanıb.

Görüşdə bildirilib ki, rəqəmsallaşdırma sahəsində mühüm islahatlar aparılır. Belə ki, ilk dəfə olaraq ”Elektron məhkəmə” informasiya sistemində hüquqi şəxsin və ya fərdi sahibkarın müflis elan edilməsi barədə mövcud olan məlumatların dövlət satınalmalarının vahid internet portalı vasitəsilə əldə edilməsi imkanı yaradılıb, müflisləşmə ilə bağlı məhkəmə işləri üzrə anonimləşdirilmiş məhkəmə qərarları və müflisləşmə sahəsində mübahisələrə dair hesabat forması ”Vahid məhkəmə portalı”nda yerləşdirilib.

Eləcə də, vəkillər üçün zəruri məlumatların elektron qaydada əldə edilməsi imkanının yaradılması məqsədilə ”Elektron vəkil” sisteminin ”Elektron məhkəmə” informasiya sistemi ilə inteqrasiyası təmin olunub. Nəticədə Fərdi İdentifikasiya Nömrəsi (FİN) əsasında vəkillərin eyniləşdirilməsi, FİN və VÖEN əsasında müqavilələrin və orderlərin elektron tərtib olunması, habelə məhkəmə qərarlarının həmin sistemə elektron göndərilməsi imkanları yaradılıb.

Həmçinin vurğulanıb ki, bu sahədə bilik və bacarıqların artırılması məqsədilə Ədliyyə Akademiyası tərəfindən kommersiya mübahisələrinə baxan hakimlər və hakimliyə namizədlər üçün bir sıra təlimlər təşkil olunub.

Tədbir iclas iştirakçılarının çıxışları və İşçi qrupun fəaliyyəti ilə bağlı müzakirələrlə davam etdirilib.

Məlumat üçün qeyd edək ki, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın ”Biznesin müflisləşməsi” İşçi Qrupuna rəhbərliyi Ədliyyə Nazirliyi həyata keçirir.

# Məhkum və həbs edilmiş şəxslər səsvermə hüququndan istifadə ediblər







**1 sentyabr Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin müəssisələrində saxlanılan müəyyən müddətə və ömürlük azadlıqdan məhrum edilmiş məhkumlar və həbs edilmiş şəxslər hər bir Azərbaycan vətəndaşı kimi seçki hüquqlarından istifadə ediblər.**

Bu məqsədlə ölkə üzrə bütün digər seçki məntəqələrində olduğu kimi, cəzaçəkmə müəssisələrində də sərbəst seçimi təmin edəcək əlverişli seçki mühiti yaradılıb. Seçki məntəqələri zəruri avadanlıqlar və texniki vasitələrlə təchiz olunub. Səsvermənin yüksək səviyyədə keçirilməsi üçün bütün imkanlardan səmərəli istifadə olunub. Məhkum və həbs edilmiş şəxslər penitensiar müəssisələrdə 13 dairəni əhatə edən 26 seçki məntəqəsində azad və sərbəst şəkildə səs veriblər.

Bundan əlavə, Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin Mühafizə alayında həqiqi hərbi xidmət keçən hərbi qulluqçuların da səs vermələri üçün bütün zəruri tədbirlər görülüb və əsgərlər yaradılmış məntəqələrdə öz seçki hüquqlarından istifadə ediblər.

Səsvermə prosesi müşahidəçilər və media nümayəndələri tərəfindən izlənilib.

# Ədliyyə Nazirliyi tərəfindən hakimlər üçün təlimlər təşkil edilib

**Ədliyyə Nazirliyinin təşkilatçılığı, Məhkəmə-Hüquq Şurası və Ali Məhkəmənin birgə dəstəyilə Almaniyanın Martin Lüter adına Halle-Vittenberq Universitetinin professoru Azər Əliyev və həmin Universitetin Hüquq texnologiyaları laboratoriyasının rəhbəri, Ural Dövlət Hüquq Universitetinin professoru Konstantin Branovitskiy tərəfindən Qusarda hakimlər üçün mülki hüquq və mülki proses üzrə təlimlər keçirilib.**



5 gün müddətində keçirilən təlimlərdə müxtəlif instansiyalar üzrə 13 hakim iştirak edib. Təlimlər hakimlərin təlimçi olaraq bilik və bacarıqlarının artırılması məqsədilə təşkil edilib. Təlim iştirakçıları gələcəkdə hakimlərin tədrisi prosesinə təlimçi kimi cəlb ediləcəklər.

Həmçinin yaxın vaxtlarda digər qanunvericilik sahələri üzrə də təlimlərin keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, ölkəmizdə hakim korpusunun komplektləşdirilməsi, məhkəmə hakimiyyətinin peşəkar hakimlərlə təmin edilməsi və bu çərçivədə hakimlərin hazırlığının təkmilləşdirilməsi məqsədilə hakimliyə namizədlərin ilkin uzunmüddətli təlimi və hakimlərin davamlı tədrisi Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir.

# Türkiyə və Azərbaycanın məhkəmə ekspertləri birgə təlimdə iştirak ediblər

**19-20 sentyabr 2024-cü il tarixlərində Bakıda "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi arasında məhkəmə ekspertizası sahəsində əməkdaşlıq haqqında Saziş" çərçivəsində 2024-cü il üzrə fəaliyyət planında nəzərdə tutulan "Polipropilen və yüksək sıxlıqlı polietilendən istehsal olunan məhsulların fiziki xassələrinin tədqiqinin xüsusiyyətləri" mövzusunda təlim təşkil olunub.**

Təlimdə polimer materialların və onlardan hazırlanan məmulatların tədqiqatının nəzəri və metodiki əsasları, fiziki və mexaniki xüsusiyyətlərinin tədqiqat üsulları, fiziki və kimyəvi xassələrini müəyyən etmək üçün aparılan laboratoriya analizləri, analitik və spektral tədqiqat metodları izah edilib və təcrübi məşğələlər keçirilib.



Təlim Azərbaycan Texniki Universitetinin Mühəndis fizikası və elektronika kafedrasının müdiri, fizika elmləri doktoru, professor Mətanət Mehrabova, Elm və Təhsil Nazirliyi Radiasiya Problemləri İnstitutunun baş elmi işçisi, kimya elmləri üzrə fəlsəfə doktoru Rəna Xankişiyeva tərəfindən tədris edilib, təcrübi məşğələlərə Universitetin digər alim və mütəxəssisləri cəlb olunub.

Təlimdə Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin, Türkiyə Respublikası Daxili İşlər Nazirliyi Jandarma Baş Komandanlığı Cinayət şöbəsi və Təhlükəsizlik Baş Komandanlığı Cinayət şöbəsinin kimyaçı ekspertləri iştirak edib, sonda iştirakçılara sertifikatlar verilib.

Qonaqlar, həmçinin Məhkəmə Ekspertizası Mərkəzinin laboratoriyalarında iş prosesi və tədqiqatda istifadə olunan cihaz və avadanlıqlarla tanış olub, qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıblar.

ƏDLİYYƏ AKADEMİYASI

*Ədliyyə Akademiyası xəbərləri*

# Ədliyyə Akademiyasında





**Ədliyyə Akademiyası hakimlər üçün "Hakimlərin deontologiya məsələləri və Etik Davranış Kodeksi" mövzusunda ixtisasartırma kursu keçirib.**

13 sentyabr tarixində, 21 nəfər hakimin iştirak etdiyi kursda mövzular Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayev və Məhkəmə-Hüquq Şurasının Aparat rəhbərinin müavini Rəşad Həsənli tərəfindən tədris edilib.

Təlim zamanı hakim və məhkəmə hakimliyinin nüfuzu, hakimlərin deontologiya məsələləri, hakimlərin etik davranış qaydaları ilə bağlı təcrübi məsələlər və s. barədə məsələlərə toxunulub.

**Dövlət Suverenliyi Günü ilə əlaqədar olaraq 20 sentyabr tarixində Ədliyyə Akademiyasında keçirilən kursların ilk dərsi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan ordusu tərəfindən ərazi bütövlüyümüzün və dövlət suverenliyimizin bərpa olunmasına həsr olunub.**

Hal-hazırda Ədliyyə Akademiyasında davam edən hakimliyə namizədlərin ilkin uzunmüddətli təliminin tədris proqramına "Dövlət suverenliyinin bərpası" mövzusu daxil edilib. Kursun əvvəlində şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ədliyyə Akademiyasının baş müəllimi Şəlalə Quluzadə məruzə ilə çıxış edərək, 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasından, 2023-cü ilin sentyabr ayında müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan ordusu tərəfindən aparılan anti-terror əməliyyatlarından söz açıb və Dövlət Suverenliyi Gününün əhəmiyyətindən bəhs edib.



**Ədliyyə Akademiyası hakimlər üçün "Məhkəmələrdə inzibati mübahisələrə baxılmasının xüsusiyyətləri" mövzusunda ixtisasartırma kursu keçirib.**



20 sentyabr tarixində, 37 nəfər hakimin iştirak etdiyi kursda mövzular Ali Məhkəmənin İnzibati Kollegiyasının sədri Xəqani Məmmədov tərəfindən tədris edilib.

Təlim zamanı inzibati sahədə olan problemli məsələlər, inzibati məhkəməyə şikayət verilmə qaydası və s. barədə məsələlərə toxunulub.

**Ədliyyə Akademiyası hakimlər üçün "Müflisləşmə və iflas məsələləri" mövzusunda distant formada ixtisasartırma kursu keçirib.**

23 sentyabr tarixində, 26 nəfər hakimin iştirak etdiyi kursda mövzular Ali Məhkəmənin hakimi Bəhram Məmmədli tərəfindən tədris edilib.

Kurs zamanı müflisləşmənin anlayışı və tarixi, ölkəmizdə və digər ölkələrdə mövcud olan məhkəmə təcrübələri və s. barədə məsələlərə toxunulub.



# QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ REYESTR MƏLUMATI

### "Vətənpərvər Maarifçi Gənclər" ictimai birliyi

**Qeydiyyat tarixi:** 07.06.2004-cü il
**Qeydiyyat №-si:** 1104-Q2-1580
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Həsənova Aysunay Nəsimi qızı olmuşdur
**Dəyişiklik:** 05.09.2024-cü il tarixdə qeydə alınıb

### "Binəqədi-31" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 16.11.2022-ci il
**Qeydiyyat №-si:** 1122-MM9-0265
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Məhərova Nərgiz Əlimməmməd qızı olmuşdur
**Dəyişiklik:** 06.09.2024-cü il tarixdə qeydə alınıb

### "Sağlam Düşüncə" Gənclər Təşkilatı ictimai birliyi

**Qeydiyyat tarixi:** 19.04.2006-cı il
**Qeydiyyat №-si:** 1106-Q10-2087
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Təhməzzadə Səadət İsmət qızı olmuşdur
**Dəyişiklik:** 06.09.2024-cü il tarixdə qeydə alınıb

### "Gənclərin Töhfəsi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.01.2010-cu il
**Qeydiyyat №-si:** 1110-Q30-2802
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Vəliyev Asim Nazimoviç olmuşdur
**Dəyişiklik:** 09.09.2024-cü il tarixdə qeydə alınıb

### "Keyfiyyət Assosiasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.10.2008-ci il
**Qeydiyyat №-si:** 1108-Q23-2591
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Novruzlu Samir Elçin oğlu olmuşdur
**Dəyişiklik:** 16.09.2024-cü il tarixdə qeydə alınıb

### "Sosial İnkişafa Yardım" ictimai birliyi

**Qeydiyyat tarixi:** 14.12.2010-cu il
**Qeydiyyat №-si:** 1110-Q34-2906
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Kazımlı Qalib Qadir oğlu olmuşdur
**Dəyişiklik:** 16.09.2024-cü il tarixdə qeydə alınıb

### "Mingəçevir Regional Qeyri-Hökumət Təşkilatlarının Resurs və Təlimi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 24.04.2018-ci il
**Qeydiyyat №-si:** 1118-Q63-3581
Birliyin ümumi yığıncağının protokolundan çıxarış və digər sənədlərə əsasən qanuni təmsilçisi Hüseynova Aytən Famil qızı olmuşdur
**Dəyişiklik:** 16.09.2024-cü il tarixdə qeydə alınıb

### "İnsanlara Qayğı" ictimai birliyi

**Qeydiyyat tarixi:** 09.04.1999-cu il
**Qeydiyyat №-si:** 1110
Birliyin ümumi yığıncağın protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Ağayev Ələkbər Qədim oğlu olmuşdur
**Dəyişiklik:** 16.09.2024-cü il tarixdə qeydə alınıb

### "Nərimanov-33" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 25.02.2022-ci il
**Qeydiyyat №-si:** 1122-MM9-0235
Birliyin ümumi yığıncağının, idarə heyətinin qərarları və digər sənədlərə əsasən qanuni təmsilçisi Hacıyev Kliment Xasay oğlu olmuşdur
**Dəyişiklik:** 19.09.2024-cü il tarixdə qeydə alınıb

### "İrəli" ictimai birliyi

**Qeydiyyat tarixi:** 19.02.2009-cu il
**Qeydiyyat №-si:** 1109-Q26-2666
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Rəhmanlı Şahin Elman oğlu olmuşdur
**Dəyişiklik:** 20.09.2024-cü il tarixdə qeydə alınıb

### "Dayaq" qeyri-hökumət humanitar yardım təşkilatı

**Qeydiyyat tarixi:** 28.09.1999-cu il
**Qeydiyyat №-si:** 1187
Konfransın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Seyidov Faiq Mir Əhməd oğlu olmuşdur
**Dəyişiklik:** 20.09.2024-cü il tarixdə qeydə alınıb

### "Zəfər" şəhid ailələrinə dəstək ictimai birliyi

**Qeydiyyat tarixi:** 13.11.2018-ci il
**Qeydiyyat №-si:** 1118-Q65-3627
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Alızadə Sevinc Əsgərxan qızı olmuşdur
**Dəyişiklik:** 23.09.2024-cü il tarixdə qeydə alınıb

### "Sabitlik və İnkişaf Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.09.2005-ci il
**Qeydiyyat №-si:** 1105-Q5-1900
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədov Rasim Adil oğlu olmuşdur
**Dəyişiklik:** 23.09.2024-cü il tarixdə qeydə alınıb

### "İşıqlı Dünya" Kimsəsiz İnsanlara Kömək ictimai birliyi

**Qeydiyyat tarixi:** 15.03.2006-cı il
**Qeydiyyat №-si:** 1106-Q8-2020
Birliyin ümumi yığıncağın protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Heydərov Samir Abasəli oğlu olmuşdur
**Dəyişiklik:** 24.09.2024-cü il tarixdə qeydə alınıb

### "Yaradıcı Gənclər" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.11.2004-cü il
**Qeydiyyat №-si:** 1104-Q3-1641
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən hazırkı hüquqi ünvanı: Şəki şəhəri, Səlahəddin Kazımov küçəsi, ev 20; qanuni təmsilçisi Abdulxalıqov Nicat Famil oğlu olmuşdur
**Dəyişiklik:** 24.09.2024-cü il tarixdə qeydə alınıb

### "Xətai-33" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 28.01.2022-ci il
**Qeydiyyat №-si:** 1122-MM9-0230
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Namazov Yenişad Namaz oğlu olmuşdur
**Dəyişiklik:** 24.09.2024-cü il tarixdə qeydə alınıb

### "Regional İnkişafın Dəstəklənməsi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 13.06.2019-cu il
**Qeydiyyat №-si:** 1119-Q68-3704
Birliyin ümumi yığıncağın protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Şirəliyev Rafət Allahbağış oğlu olmuşdur
**Dəyişiklik:** 24.09.2024-cü il tarixdə qeydə alınıb

### "Region İcmalarının İnkişafına və Yoxsulluğun Azaldılmasına Dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 13.06.2019-cu il
**Qeydiyyat №-si:** 1119-Q67-3700
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Mirzəyev Teymur Ələkbər oğlu olmuşdur
**Dəyişiklik:** 25.09.2024-cü il tarixdə qeydə alınıb

### "Azərbaycan Animasiya Assosiasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 19.04.2022-ci il
**Qeydiyyat №-si:** 1122-Q79-4021
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Ağaməliyev Rəşid Eldaroviç olmuşdur
**Dəyişiklik:** 26.09.2024-cü il tarixdə qeydə alınıb

### "Kimsəsiz Uşaqların Sosial Müdafiəsi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 31.01.2017-ci il
**Qeydiyyat №-si:** 1117-Q58-3467
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi İsayeva Lamiyə Ədalət qızı olmuşdur
**Dəyişiklik:** 26.09.2024-cü il tarixdə qeydə alınıb

### "Üfüq" xeyriyyə cəmiyyəti ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.12.1999-cu il
**Qeydiyyat №-si:** 1285
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Abbasova Nuriyyə Rasim qızı olmuşdur
**Dəyişiklik:** 26.09.2024-cü il tarixdə qeydə alınıb

### "Qeyd-Sosial Maarifləndirmə" ictimai birliyi

**Qeydiyyat tarixi:** 10.08.2022-ci il
**Qeydiyyat №-si:** 1122-Q80-4086
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Nurməmmədov Tural İbrahim oğlu olmuşdur
**Dəyişiklik:** 26.09.2024-cü il tarixdə qeydə alınıb

### "Əlilliyi olan şəxslərə sosial dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 22.11.1995-ci il
**Qeydiyyat №-si:** 773
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Musayeva Təranə Şövkət qızı olmuşdur
**Dəyişiklik:** 27.09.2024-cü il tarixdə qeydə alınıb

**ELAN**

22.11.2021-ci il tarixdə 1121-Q77-3970 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış "Azərbaycan Demokratiya və Rifah" ictimai birliyi ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, Səbail rayonu, 1-ci Neftçilər döngəsi, ev 2, mənzil 1.


**Təsisçi:**
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
**Buraxılışa məsul:**
Rasim Həsənov

**Ünvan:**
Bakı-AZ 1073. İnşaatçılar pr-ti, 1.
Tel: 537-06-40
Faks: 498-59-31

Qəzetdə qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatlar dərc olunur.
Qəzet ayda bir dəfə çıxır.

Reyestr N 769